# AZƏRBAYCAN GÜLƏŞ FEDERASİYASININ MƏNZİLLƏ TƏMİN EDİLMƏ İLƏ BAĞLI NAMİZƏDLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ QAYDASI

**Mənzillə təmin edilmə ilə bağlı namizədlərin qiymətləndirilməsi**

**Qaydası**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Güləş Federasiyasının mənzillə təmin edilmə ilə bağlı namizədlərin qiymətləndirilməsi Qaydası (bundan sonra: Qayda) Azərbaycan Güləş Federasiyasının Nizamnaməsinin 4.15.3-cü yarımbəndinə uyğun olaraq hazırlanmışdır və namizədlərin ədalətli və şəffaf şəkildə mənzillə təmin edilməsi məqsədilə qiymətləndirilməsi (bundan sonra – qiymətləndirilmə) qaydalarını müəyyən edir.

2. Qayda şəffaflıq, bərabərlik və ədalət prinsiplərinə əsaslanır.

## 2. Qiymətləndirilmənin tətbiq dairəsi

2.1. Qiymətləndirilmə daha öncə mənzillə təmin edilmiş, qiymətləndirilmə dövrünün son 1 (bir) ilində barəsində ciddi intizam tənbehi tətbiq edilmiş və Qaydanın 2.1-ci bəndi nəzərə alınmaqla milliləşdirilmiş şəxslər (Azərbaycan Respublikasının vətəndaşlığını sonradan əldə etmiş şəxslər) istisna olmaqla mənzillə təmin edilmə ilə bağlı rəsmi qaydada müraciət etmiş idmançı və məşqçiləri əhatə edir.

2.2. Qayda milliləşdirilmiş şəxs(lər)ə (Azərbaycan Respublikasının vətəndaşlığını sonradan əldə etmiş şəxs(lər)) o halda tətbiq edilir ki, həmin şəxs(lər) azı 8 (səkkiz) il müddətində güləş idman növü üzrə Azərbaycan Respublikasının milli komandalarının tərkibində çıxış etmiş olsun(lar).

## 3. Qiymətləndirilmə dövrü

3.1. Qiymətləndirilmə dövrü 18.10.1991-ci il tarixindən qiymətləndirilmənin aparıldığı tarixədək olan müddəti əhatə edir.

3.2. Qiymətləndirilmə ildə bir dəfə olmaqla hər ilin noyabr ayı ərzində həyata keçirilir.

## 4. Qiymətləndirilmə üzrə komissiya

4.1. Namizədlərin qiymətləndirilməsi Qiymətləndirilmə üzrə komissiya (bundan sonra: Komissiya) tərəfindən həyata keçirilir. Komissiyası azı 5 (beş) nəfərdən ibarət olmaqla sədrdən, katibdən və digər üzvlərdən təşkil olunur.

4.2. Komissiyasının tərkibi Azərbaycan Güləş Federasiyasının İcraiyyə Komitəsi tərəfindən təsdiq edilir.

4.3. Komissiyası öz fəaliyyətində Azərbaycan Respublikasının qanunvericiliyini, Azərbaycan Güləş Federasiyasının Nizamnaməsini, qərarlarını, qaydalarını, habelə Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin, Azərbaycan Milli Olimpiya Komitəsinin, Dünya Güləş Birliyinin (UWW) qaydalarını və bu Qaydanı rəhbər tutur.

4.4. Komissiyasının iclasları ildə bir dəfədən az olmayaraq keçirilir və 3 (üç) üzvü iştirak etdikdə səlahiyyətli sayılır.

4.5. Komissiyasının üzvü birbaşa və ya dolayı marağı olan namizədin qiymətləndirilməsində iştirak edə bilməz.

4.6. Komissiyasının iclasları sədrin və katibin imzaladığı protokolla rəsmiləşdirilir.

## 5. Qiymətləndirilmənin aparılması

5.1. Namizədlərin qiymətləndirilməsi müvafiq olaraq idman nailiyyəti və digər göstəricilər üzrə aparılır. Digər göstəricilər yalnız idman nailiyyəti üzrə qiymətləndirilmə nəticələri eyni olduqda tətbiq edilir.

5.2. İdman nailiyyəti üzrə qiymətləndirilmə idmançı tərəfindən əldə edilən hər nailiyyət (medal) üzrə aşağıdakı cədvəl əsasında müəyyən edilən balların riyazi toplanması yolu ilə hesablanır:

| **NAİLİYYƏT (MEDAL)** | **NAİLİYYƏT ÜZRƏ BAL** | |
|---|---|---|
| | *OLİMPİYA ÇƏKİSİ* | *QEYRİ-OLİMPİYA ÇƏKİSİ* |
| **OLİMPİYA OYUNLARI (BÖYÜKLƏR ARASINDA)** | | |
| Qızıl medal | İmtiyaz* | - |
| Gümüş medal | 80 | - |
| Bürünc medal | 70 | - |
| **DÜNYA ÇEMPİONATI (BÖYÜKLƏR ARASINDA)** | | |
| Qızıl medal | 80 | 60 |
| Gümüş medal | 60 | 40 |
| Bürünc medal | 50 | 30 |
| **AVROPA ÇEMPİONATI (BÖYÜKLƏR ARASINDA)** | | |
| Qızıl medal | 60 | 40 |
| Gümüş medal | 40 | 20 |
| Bürünc medal | 30 | 10 |
| **AVROPA OYUNLARI (BÖYÜKLƏR ARASINDA)** | | |
| Qızıl medal | 60 | 40 |
| Gümüş medal | 40 | 20 |
| Bürünc medal | 30 | 10 |
| **İSLAM HƏMRƏYLİYİ OYUNLARI** | | |
| Qızıl medal | 60 | 40 |
| Gümüş medal | 40 | 20 |
| Bürünc medal | 30 | 10 |

5.3. İdmançı namizədlərin qiymətləndirilməsi zamanı nailiyyətin (medalın) əldə edildiyi çəkinin olimpiya çəki kateqoriyası olması nailiyyətin (medalın) əldə edildiyi tarix üzrə Beynəlxalq Olimpiya Komitəsinin (International Olympic Committee) müvafiq qərar(lar)ına əsasən müəyyən edilir. Həmin

qərar(lar)a əsasən olimpiya çəki kateqoriyası kimi tanınmayan bütün çəki kateqoriyaları qeyri-olimpiya çəki kateqoriyaları kimi qiymətləndirilir.

*5.4. Olimpiya Oyunlarında qızıl medal qazanmış namizəd(lər) qiymətləndirilmə zamanı digər nailiyyət və göstəricilərdən asılı olmayaraq ən yüksək bal toplamış namizəd(lər) hesab olunur(lar).

5.5. Məşqçi namizədlərin qiymətləndirilməsi zamanı müvəfəqiyyət balının hesablanması məşqçisi olduğu idmançı və ya idmançıların Qaydalara uyğun topladığı balların riyazi toplanması yolu ilə həyata keçirilir.

5.6. Namizədlərin qiymətləndirilməsi nəticəsində idman nailiyyəti üzrə göstəricilər bərabər olduqda namizədlər ailə vəziyyəti (ailə üzvlərinin sayı), mənzil şəraiti (özünün və ya ailə üzvünün mülkiyyətində mənzil olub-olmaması) və xidmət müddəti əsasında qiymətləndirilir:

| **Sosial vəziyyət** | **Bal** |
|---|---|
| *Ailə vəziyyəti* | |
| 1 uşağı olduqda | 2 |
| 2 uşağı olduqda | 3 |
| 3 və daha çox uşağı olduqda və ya himayəsində əlilliyi olan ailə üzvü (övlad, ər (arvad), ata, ana, nənə, baba) olduqda | 4 |
| *Mənzil şəraiti* | |
| Özünün və ailə üzvlərinin (ər (arvad) və uşaqlar) mülkiyyətində son 5 (beş) il ərzində daşınmaz əmlak olmadıqda | 4 |
| *Xidmət müddəti (güləş idmanı üzrə aktiv iştirak dövrü)* | |
| 3-7 il | 2 |
| 7-12 il | 3 |
| 12 və daha çox | 4 |

*Məsələn: idman nailiyyəti üzrə nəticələri eyni olan iki namizəddən birincisi subaydır, özü və ailə üzvünün mülkiyyətində daşınmaz əmlak yoxdur və xidmət müddəti 10 ildir, ikincisinin isə himayəsində əlilliyi olan anası olmaqla özünün mülkiyyətində Bakı şəhərində fərdi yaşayış evi vardır və xidmət müddəti 5 ildir. Bu halda birinci namizəd qiymətləndirilmə nəticəsində 3+4=7, ikinci namizəd isə 4+2=6 bal toplayacaqdır.*

Himayəsində əlilliyi olan ailə üzvü olan şəxslərə münasibətdə övlad sayından asılı olmayaraq ailə vəziyyəti kateqoriyası üzrə maksimal 4 bal hesablanır.

5.7 Qiymətləndirilmənin yekununda Komissiya tərəfindən idmançı və məşqçi namizədlərin topladığı ballar üzrə sıralama tərtib edilir. Sıralama məşqçilər və idmançılar üçün ayrıca aparılır və təklif edilən mənzil sayına uyğun olaraq ən yüksək bal toplayan şəxslər barəsində müsbət rəy verilməklə tərtib edilmiş protokol ən geci 3 (üç) gün ərzində aidiyyəti üzrə təqdim edilir.

5.8. Namizəd Komissiyanın hərəkətlərindən (hərəkətziliyindən) narazı qaldıqda nəticələrin elan edildiyi tarixdən 3 (üç) gün ərzində Azərbaycan Güləş Federasiyasının İcraiyyə Komitəsinə şikayət edə bilər. İcraiyyə Komitəsi şikayətə 5 (beş) iş günü ərzində baxır və qəbul edilən qərar qətidir.

## 6. Yekun müddəalar

6.1. Qayda 01 dekabr 2025-ci il tarixində qüvvəyə minir.

6.2. Qaydaya əlavə və dəyişikliklər Azərbaycan Güləş Federasiyasının İcraiyyə Komitəsi tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.